

Təhsil Nazirliyi Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin IX sinif şagirdi, Prezident təqaüdçüsü, beynəlxalq müsabiqələr laureatı Leyla Zeynalova

# Azərbaycanlı məktəbli Belçikada I yerə layiq görülüb

Belçikada keçirilən "13th rencontres Internationales des Jeunes Pianistes" beynəlxalq müsabiqəsində I yerə layiq görülüb.

2-7 fevral tarixlərində keçirilən bu müsabiqə EPTA — Avropa Fortepiano Müəllimləri Assosiasiyası tərəfindən təşkil edilib. EPTA 1978-ci ildə Londonda yaradılıb və hazırda Avropanın 42 dövləti bu assosiasiyanın üzvüdür.

Müsabiqədə 21 ölkədən 54 gənc pianoçu öz istedadını nümayiş etdirib. Leyla Zeynalova müsabiqənin II yaş qrupunda İ.S.Bax, V.A.Motsart, F.Şopen, S.Prokofyev və Slonimskinin əsərlərini peşəkarlıqla ifa edərək münsiflər heyəti tərəfindən yüksək qiymətə layiq görülüb.

Qeyd edək ki, 2014-cü ilin oktyabrında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, Leyla Zeynalovanın adı gənc istedadların "Qızıl kitabı"na yazılaraq xüsusi təqaüdə layiq görülüb. Gənc pianoçumuz 2015-ci ildə "Young musician - Tallinn 2015" adlı beynəlxalq müsabiqədə iştirak edərək Grand-Prix mükafatına layiq görülüb.

**www.edu.gov.az**